LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

İş qadınları (II mərhələ)



İcra müddəti: 21.12.2021 - 21.12.2027

ŞT ölkələri:

Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 8 440 000

Ümumi büdcə: € 76 540 000

İcraçı təşkilat(lar):

European Bank for Reconstruction and Development

Internet səhifəsi: ebrdwomeninbusiness.com

Layihənin təsviri:

Bu fəaliyyət Şərq Tərəfdaşlığı (ŞT) ölkələrində maliyyə vəsaitlərinə, eləcə də qeyri-maliyyə biznes inkişafı xidmətlərinə çıxışı asanlaşdırmaqla qadın sahibkarlığını və daha geniş miqyasda qadınların biznesdə iştirakını təşviq etmək və dəstəkləmək üçün nəzərdə tutulmuşdur. Proqram qadınlar üçün ayrılmış xüsusi kredit xətlərindən, ilkin zərər riskinin qarşılanması mexanizmindən və Tərəfdaş maliyyə qurumları (TMQ) üçün yerli valyutada faiz dərəcəsinin subsidiyalaşdırılmasından ibarətdir. Bundan əlavə, proqram çərçivəsində Tərəfdaş maliyyə qurumları üçün potensialın artırılması tədbirləri, ŞT ölkələrindəki qadın sahibkarlar üçün isə biznes məsləhətləri, təlim və şəbəkələşmə fəaliyyətləri həyata keçiriləcək.

Gözlənilən nəticələr:

Proqramın qadın sahibkarların maliyyəyə və praktiki bacarıqlara çıxışını artıracağı gözlənilir. Yaradılan təsirin tam mənzərəsini təqdim etmək məqsədilə, bu proqram çərçivəsində əldə olunan nəticələr bütövlükdə Proqramı əks etdirən məntiqi çərçivədə öz əksini tapacaq. Proqramın əsas nəticələri aşağıdakı kimidir:

• AYİB tərəfindən TMQ-lər üçün 50 000 000 avro məbləğində yeni maliyyə vəsaitinin ayrılması;
• Proqram çərçivəsində ən azı 13 TMQ-yə xüsusi kredit xətlərinin verilməsi (onlardan 5-i yeni tərəfdaş maliyyə qurumu olacaq);
• Proqram çərçivəsində an azı 5 yeni TMQ-nin texniki yardım alması;
• Proqram çərçivəsində TMQ-lər tərəfindən qadınların rəhbərlik etdiyi KOB-lara 60 000 000 avro məbləğində maliyyə vəsaitinin təqdim edilməsi;
• Qadınların rəhbərlik etdiyi KOB-lara 3000 sub-kreditin verilməsi;
• Ən azı 264 qadının rəhbərliyindəki KOB öz ehtiyaclarına və strateji prioritetlərinə uyğun olaraq onlara göstərilən fərdi məsləhət xidmətlərindən faydalanacaq və bu xidmətlərin yaradacağı səmərə icra başa çatdıqdan bir il sonra ölçüləcək.